# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №26 (66) • 28.11.2011

AzadliqRadiosu.az®

**Ombudsman əfv təklifi ilə prezidentə müraciət edib** səh.2

**Qanunsuz tikililər barədə qanun hazırlanır** səh.3

**5 günlük körpə nədən ölüb?** səh.4

**Naxçıvanlı müxalifətçilər yeni təzyiqlərdən ehtiyatlanırlar...** səh.5

**Son 8 ildə Azərbaycanda nə qədər iş yeri yaradılıb?** səh.11

Рафик Таги: **Иран и неизбежность глобализации** səh.7

**Bakının qarlı problemi** səh.12

**Azərbaycan güləşində və boksunda əcnəbilər** səh.15

# Azərbaycanda yazıçının ölümü dünyanın diqqətində



**Rafiq Tağını kim öldürdü?**

səh.8,9,10

## Ermənistan snayperlərini geri çəkməyə hazır olduğunu deyir

Keçən həftənin sonunda Ermənistan ordusu məlumat yaydı ki, Azərbaycan silahlı qüvvələrinin snayperləri Qarabağda təmas xəttində iki erməni əsgərini qətlə yetiriblər. Ermənistanın Müdafiə naziri Seyran Ohanyan isə noyabrın 24-də bildirib ki, Azərbaycanla qoşunların təmas xəttindən snayperləri geri çəkməyə hazırdırlar, amma Azərbaycan rəhbərliyi bundan imtina edir.

səh.2

Faktor



**Evinə qaz tələb etdi, həbsə düşdü** səh.5

**Tikintidə fəhləlik edən xanəndə efirdə...** səh.13

**Pensiyalar artırılacaq** səh.6

**İran səfirliyi Rafiq Tağıya sui-qəsdlə bağlı açıqlama yayıb** səh.12

# Gənclər ziyalılara dəstək aksiyası keçirdilər




**«İntellektin əzildiyi ölkəyə xoş gəlmisiniz!». Noyabrın 26-da «Dalğa» Gənclər Təşkilatı Azərbaycan, rus və ingilis dillərində yazılmış bu şüarla Heydər Əliyev hava limanının girəcəyində etiraz aksiyası keçirib. Gənclər AzadlıqRadiosuna bildiriblər ki, onlar bununla son vaxtlar Azərbaycanda ziyalılara qarşı təzyiq və təqiblərə etiraz ediblər:**

*«Akademik Rafiq Əliyev işdən çıxarılıb, yazıçı Rafiq Tağı qətlə yetirilib. Bütün bu baş verənləri Azərbaycan ziyalısına ədalətsizlik kimi qiymətləndirdik. Hesab edirik ki, ziyalıya qarşı nə qədər basqı və təzyiq olarsa, o ölkənin gələcəyi olmaz».*

Gənclər aksiya keçirmək üçün ünvanın da təsadüfən seçilmədiyini bildirirlər: «Bu yoldan xaricilər Azərbaycana gəlir. Onlar elə bilirlər ki, neftin, yaşayışın gözəl olduğu bir ölkəyə gəlirlər. Onlara göstərmək istəyirdik ki, burda ziyalılar əzilir, öldürülür, işdən qovulur, onlara qarşı haqsızlıq edilir. Biz bundan sonra da bu vəziyyətə öz etirazımızı davam etdirəcəyik».

Aksiya qısamüddətli olub və polis müdaxiləsi olmadan başa çatıb.



# Ombudsman əfv təklifi ilə prezidentə müraciət edib



Ombudsman Elmira Süleymanova

**Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova prezident İlham Əliyevə əfv təklifi ilə müraciət edib. Müraciətdə deyilir ki, bu il bir sıra əlamətdar tarixlər – respublikanın dövlət müstəqilliyinin bərpasının 20 illiyi, Azərbaycanın Avropa Şurasına üzvlüyünün və Avropa İnsan Hüquqları Konvensiyasının ratifikasiyasının 10 illiyi qeyd olunur. Bütün bunları nəzərə alaraq Ombudsman istəyir ki, 10 Dekabr – Beynəlxalq İnsan Hüquqları Günü və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində prezident növbəti əfv fərmanı imzalasın.**

Ombudsmanın müraciəti əsasında indiyədək 339 məhkum əfv sərəncamları ilə azadlığa buraxılıb. Prezident İlham Əliyev sonuncu dəfə bu il mayın 26-da əfv sərəncamı imzalayıb. Əfv ümumilikdə 90 məhbusa şamil edilib. Azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 70 nəfər azad edilib.




Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:

SMS: (+994 50 744 10 17) Telefon: 436 – 77 - 41

Elektron ünvan: efir@azadliqradiosu.az



Seyran Ohanyan (sağda) ön xətdə əsgərləri mükafatlandırır

# Ermənistan snayperlərini geri çəkməyə hazır olduğunu deyir

**Ermənistanın Müdafiə naziri Seyran Ohanyan noyabrın 24-də bildirib ki, Azərbaycanla qoşunların təmas xəttindən snayperləri geri çəkməyə hazırdırlar. Nazir AzadlıqRadiosunun erməni xidmətinə deyib ki, onlar dəfələrlə snayperləri götürə biləcəklərini desələr də, Azərbaycan rəhbərliyi bundan imtina edir.**

Bundan əvvəl Qarabağ münaqişəsinin həllinə vasitəçilik edən ATƏT-in Minsk Qrupunun həmsədrləri də dəfələrlə tərəfləri snayperlərini təmas xəttindən çıxarmağa səsləyiblər. Onlar hesab edirlər ki, bununla insan itkisi xeyli azalardı. Amma Azərbaycanın Müdafiə Nazirliyinin rəsmiləri bildirirlər ki, snayperlərin ön xətdə olmaması problemin həlli yolu deyil və əslində erməni tərəfdə snayperlər daha fəaldırlar. Onların günahından Azərbaycan ordusu da itkilər verir.

Keçən həftənin sonunda Ermənistan ordusu məlumat yaydı ki, Azərbaycan silahlı qüvvələrinin snayperləri Qarabağda təmas xəttində iki erməni əsgərini qətlə yetiriblər. Buna görə Yerevan cavab tədbirləri ilə hədələyib. Cavab addımlarının nə ola biləcəyi barədə jurnalistin sualına Ermənistanın Müdafiə naziri bu cür cavab verib: "Qarabağdakı hissələrdə Azərbaycanın bu cür addımlarının qarşısını ala bilmək üçün müvafiq tədbirlər görülür. Yəni elə ediləcək ki, Azərbaycan snayperləri atəşdən çəkinsin".

Bakıdan isə qeyd edirlər ki, Azərbaycan ordusu heç vaxt atəşkəsi birinci pozmur.

# "Aşurada zəncir vurmayın, qan verin"

## Qafqaz Müsəlmanları İdarəsi Məhərrəm ayının başlanması və Aşura ilə bağlı fətva verib



**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Məhərrəm ayının başlanması ilə əlaqədar fətva verib. QMİ-nin mətbuat xidmətindən verilən məlumata görə, fətvada 1432-ci Hicri-qəməri ilinin artıq başa çatmaq üzrə olduğu, yeni 1433-cü ilin başlanğıcı-Məhərrəm ayının birinci gününün Miladi təqvimi ilə 2011-ci il noyabr ayının 27-nə təsadüf etdiyi bildirilir.**

Fətvada Aşura gününün 2011-ci il dekabr ayının 6-na təsadüf etdiyi bildirilib. O da qeyd olunub ki, Aşura mərasimləri məscidlərdə, ibadət ocaqlarında ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməlidir. Müqəddəs məkanlarda nizam-intizam gözlənilməli, qurşağadək soyunaraq zəncir və ya başqa alətlərlə bədənə xəsarət yetirməklə qan çıxarmaq kimi İslamda bəyənilməyən hərəkətlərə yol verilməməlidir: *"Son illər təziyə günlərində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən, xalqımız tərəfindən təqdir edilən və İmam Hüseyn (ə) naminə tibbi ehtiyaclar üçün qan verilməsi aksiyalarının təşkili ən münasib əzadarlıq nümunəsidir. Bu təcrübə örnək olaraq müsəlmanlar arasında yayılmalıdır".*

# Evlənənlərin bir-birinə tibbi arayış təqdim etməsi məcburi olacaq



*Azərbaycanda nikaha girən şəxslərin tibbi arayış alması məcburi olacaq. Milli Məclisin Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəbli jurnalistlərə belə deyib. H.Rəcəbli qeyd edib ki, həm nikah dövründə, həm də boşanma zamanı bir sıra problemlər ortaya çıxır: «Gənclər nikaha girirlər, sonra məlum olur ki, oğlan narkomandır, yaxud hər ikisi talassemiya xəstəliyinin daşıyıcısıdır və dünyaya gətirdikləri övlad da xəstə olacaq. Bütün bunlar onu göstərir ki, nikaha girənlər bir-birilərinə mütləq tibbi arayış təqdim etməlidirlər».*

*H.Rəcəbli bildirib ki, burada konfidensiallıq məsələsi var, nikaha girən gənclər və vətəndaş vəziyyəti aktlarının qeydiyyatı idarəsinin rəisi, bir də həkimlər sirr daşıyıcısı olacaqlar:* «Vətəndaş vəziyyəti aktlarının qeydiyyatı idarəsinin rəisinə sirr daşıyıcısı subyekti statusu veriləcək. O, qanunla nikaha girən gənclərin hansı xəstəliyin daşıyıcısı olduğunu yaymamağa məsul olacaq».

*Komitə sədri onu da deyib ki, xəstəlik daşıyıcısı olmaları gənclərin nikaha girməsini əngəlləməyəcək:* «Söhbət yalnız qarşılıqlı şəkildə məlumatlandırmadan gedir. Tibbi arayış buna görə məcburi olacaq».

***MediaForum***

# Qanunsuz tikililər barədə qanun hazırlanır

«Azərbaycan prezidentinin bu ilin əvvəlində verdiyi sərəncama uyğun olaraq qanunsuz tikililərin sənədləşdirilməsi barədə qanun layihəsi hazırlanıb». Bunu Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Məmmədov deyib. O bildirib ki, qanun layihəsi artıq hazırdır və müvafiq qurumlara təqdim olunub. Milli Məclisdə təsdiqlənəndən sonra qüvvəyə minəcək.

***apa***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Fransanın yerinə Avropa Birliyi həmsədr olsunmu?**



**Rusiya şirkəti Ermənistandakı atom elektrik stansiyasını idarə etmək istəmir**



**Ağ pambığın «qara üzü»...**



**Əfqanıstanda küçə uşaqlarının acı taleyi...**



**Çılpaq misirli qadın kişiləri hicab geyinməyə çağırıb**

# 5 günlük körpə nədən ölüb?



**«DEDİLƏR Kİ, UŞAĞIN ÜRƏYİ DAYANIB»**

*«Uşaq normal doğulmuşdu. Aparatda da yoxlatdırdıq, heç bir şey yox idi, bir az sinəsində xışıltı var idi. Həkimlər sistemin altında öldürdülər».*

Sentyabrın 2-də Bakıxanovdakı 2 saylı doğum evində dünyaya gələn körpə 5 gündən sonra Qarayev adına Uşaq Xəstəxanasında ölüb. Anası Gülşən Hüseynova AzadlıqRadiosunun «Qaynar xətt»inə şikayət edib ki, körpəsini ağxalatlıların məsuliyyətsizliyi üzündən itirib: «Həkim tapşırmışdı ki, uşağa yemək və dərman sistemdən 3 saat sonra verilsin. Uşaq sistem altında olanda tibb bacısı dedi ki, get yeməyini, dərmanını gətir, verək. Dedim axı həkimin tapşırığı var. Üstümə acıqlandı, mən də məcbur olub gətirib yeməyi, dərmanı tibb bacısına verdim. Əvvəl uşağa yemək verdi, sonra da dərmanını. Bir azdan gördüm ki, elə sistemin altındaca şprislə uşağın sinəsindən sarı su çəkir. Soruşdum bu nədir? Dedi şirədir. Tibb bacısı gedəndən sonra gördüm uşağın burnundan sarımtıl maye gəlir. Tibb bacısını çağırdım, uşağı götürüb başqa otağa apardı, dedi qaç həkimi çağır. Həkimi çağıranda o da üstümə çığırdı ki, deməmişəm məni narahat etməyin? Dedim axı uşağın vəziyyəti ağırdır. Gəldi girdi həmin otağa, məni içəri buraxmadılar. Bir azdan çağırdılar, dedilər ki, uşağın ürəyi dayanıb».

Gülşən Hüseynova deyir ki, körpəsinin ölüm səbəblərini aydınlaşdırmağa çalışsa da, xəstəxana rəhbərliyi onunla görüşməkdən imtina edib.

**«XƏSTƏXANA RƏHBƏRLİYİ ÖLÜMƏ AYDINLIQ GƏTİRMƏDİ»**

Gülşən Hüseynovanın yaxın qohumu Pərvanə Hüseynova deyir ki, hələ doğum evində olarkən həkimlər körpənin sinəsində xışıltı olduğunu bildiriblər. Deyiblər ki, soyuqdəymədən ola bilər. Ətraflı müayinə üçün körpəni Qarayev adına Uşaq Xəstəxanasına göndəriblər.

**«HƏKİMLƏR CƏZALANDIRILIBLAR»**

Pərvanə Hüseynova deyir ki, körpə üçün yazılan reseptlərdə ürək qüsuru ilə əlaqəli heç bir dərman yazılmayıbmış: «Reseptlər əlimizdədir, dərmanların hamısı soyuqdəymə ilə əlaqəli idi. Körpənin ürəyində problem olsaydı, dərmanlardan biri bunun üçün olardı. Biz hesab edirik ki, uşaq məsuliyyətsizlikdən öldü».

Qarayev adına Uşaq Xəstəxanasının baş həkiminin müavini Eldar Rəhimov isə «Qaynar xətt»ə körpənin ölümü ilə əlaqədar bəzi həkimlərin cəzalandırıldığını dedi: «O valideynlər Səhiyyə Nazirliyinə də şikayət etmişdilər. Məsələ araşdırıldı və həkimlər cəzalandırıldı».

Ancaq baş həkimin müavini körpənin ölümünün əsl səbəbindən danışmadı. Heç həkimlərə verilən cəzanın nədən ibarət olduğunu da demədi.

**«VALİDEYNLƏR PROKURORLUĞA ŞİKAYƏT ETMƏLİDİRLƏR»**

Gülşən Hüseynova isə deyir ki, həkimlərin cəzalandırılması ilə bağlı ona rəsmi sənəd verilmir. Hüquqşünas Xalid


Xalid Bağırov

Bağırov «Qaynar xətt»ə bildirib ki, valideynlər körpənin ölümündə həkimlərdən şikayətçidirlərsə, prokurorluq orqanına müraciət etməlidirlər: «Baş həkimin müavini həkimlərin cəzalandırıldığını etiraf edirsə, deməli, bu həkimlərin günahı olub ki, onları cəzalandırıblar. Körpə həkimlərin səhlənkarlığı üzündən ölübsə, burada artıq cinayət tərkibi var - vəzifəli şəxsin səhlənkarlığı».

Gülşən Hüseynova körpəsinin ölümü ilə əlaqədar Baş Prokurorluğa müraciət edəcəyini deyir.




**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır.

**AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.
E-mail: esmer_alda@mail.ru




Günün ən vacib hadisələri **AzadlıqRadiosunun** müxbirlərinin reportajlarında. Aktual müsahibələr və ekspertlərin analizləri. Hər gün **saat 20.05-dən 20.35-dək.**

# Rüşvət ittihamı ilə tutulan zabitə 8 il həbs cəzası

Bu barədə APA-ya Tərtər Hərbi Məhkəməsindən bildirilib. Məlumata görə, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin qərargah bölüyünün komandiri, kapitan Ramil Eyvazov Cinayət Məcəlləsinin 311.3.2-ci (rüşvət alma – təkrar törədildikdə), 311.3.4-cü (rüşvət alma – hədə-qorxu tətbiq olunmaqla törədildikdə) və 331.2-ci (hərbi qulluqçunu təhqir etmə, döymə və işgəncə vermə) maddələri ilə təqsirli bilinərək 8 il müddətinə azadlıqdan məhrum edilib. Birinci instansiya məhkəməsinin çıxardığı hökmlə razılaşmayan hərbçi apelyasiya şikayəti verib. R. Eyvazovun apelyasiya şikayətinə Gəncə Apelyasiya Məhkəməsində baxılacaq.

# Qaz tələb etdi, həbsə düşdü


Salyanda etiraz aksiyası, 18 noyabr 2011

**Salyan rayonunun Qarabağlı kənd sakini Aqil Qasımov noyabrın 21-dən Salyan Rayon Polis Şöbəsində saxlanır. O, hakimiyyət nümayəndəsinə zor tətbiq etməkdə ittiham olunur. Noyabrın 18-də Qarabağlı kəndinin sakinləri bir ildir kəndə qaz verilməməsinə etiraz olaraq Salyan-Şirvan yolunu bağlamışdılar. Sakinlərin dediyinə görə, polis yolu açmaq üçün onlara qarşı zor tətbiq edib.**

Hadisədən 3 gün sonra – noyabrın 21-də aksiya iştirakçılarından 3-nü polisə çağırıblar. Sakinlərdən Yusif Alxanov deyir ki, polis şöbəsində onları bir neçə saat dindirdikdən sonra onu və İxtiyar Həsənovu sərbəst buraxıblar. Aqil Qasımov isə şöbədə qalmalı olub: «Guya iğtişaşı o təşkil edib, polisə müqavimət göstərib. Amma o, heç nə etməyib, sadəcə, aksiyada arvad-uşağı döyürdülər, o da bunun qarşısını alıb. Orada yığışan bütün qadınlar təsdiq edə bilər ki, Aqil Qasımovun heç bir günahı yoxdur. Bizə qarşı təzyiq olub, o da bizi müdafiə edib. Aqil nə xuliqanlıq, nə cinayət edib ki?!».

**«YALANDIR!»**

Aqil Qasımovun qardaşı Arif Qasımov da deyir ki, Aqil Qasımov aksiya zamanı polisin qadınlara qarşı zor tətbiq etməsinə qarşı çıxıb, amma heç bir hakimiyyət nümayəndəsinə əl qaldırmayıb.

Salyan Rayon Polis Şöbəsi rəisinin müavini Knyaz Həsənov AzadlıqRadiosuna Aqil Qasımovun idarədə saxlandığını təsdiqləyib. Amma o deyir ki, polisin sakinlərə qarşı zor tətbiq etməsi, digər iki sakinin də idarədə dindirilməsi barədə deyilənlər yalandır: «Yalan söhbətdir, orada sakinlərlə yalnız söhbət olub, zor tətbiq olunmayıb. Nə Yusif idarədə olub, nə də İxtiyar. Bircə Aqil Qasımov gətirilib. Aqil Qasımovla bağlı təhqiqat gedir, polisə xəsarət yetirib».

Aqil Qasımov barəsində hakimiyyət nümayəndəsinə zor tətbiq etmək ittihamı ilə cinayət işi açılıb. İttiham təsdiqlənərsə, 3 ilədək həbs oluna bilər. Aqil Qasımov 3 azyaşlı uşaq atasıdır, himayəsində həm də xəstə anası var. Kənd sakinləri onun Şirvan bazarında göyərti satmaqla ailəsini dolandırdığını deyirlər.

**«QƏFİLDƏN KÜTLƏNİN İÇİNDƏN ÇIXDI, MƏNİ VURDU»**

Aqil Qasımovun xəsarət yetirdiyi iddia olunan hakimiyyət nümayəndəsi - sahə rəisi Elşən Yusifovdur. O deyir ki, gözünün altı göyərib, dodağı partlayıb, tibbi ekspertizadan da keçib. Elşən Yusifov bildirir ki, noyabrın 18-də sakinlərlə polis arasında heç bir qarşıdurma yaranmayıb, sadəcə, Aqil Qasımov kütlənin içindən qəfildən irəli keçərək onu vurub.

**«BU, SİFARİŞDİR»**


Emil Məmmədov

*Salyandan olan hüquq müdafiəçisi Emil Məmmədov sahə rəisinin dediklərini səmimi hesab etmir:*

«3-4 gün sonra bu məsələyə belə hüquqi qiymət verilməsi, məncə, yuxarı təbəqədən gələn göstərişdir. Kimsə mütləq tutulub cəzalandırılmalıdır ki, başqa adamlar buna baxıb nəticə çıxarsınlar, etiraz aksiyalarına əl atmasınlar. Vətəndaşla polisi üz-üzə qoymaq çox pis haldır. Mənə elə gəlir ki, hakimiyyət orqanları bundan bir nəticə çıxarmalıdır. Xalq nə istəyir ki? Evində qaz yandırmaq istəyir də. Çünki bu insanların əksəriyyətinin həyatında ötən əsrdən neft hasil olunur».

***Ülkər Akifqızı***


Yaşar Bağırsoy

# Naxçıvanlı müxalifətçilər yeni təzyiqlərdən ehtiyatlanırlar...

*AXCP Naxçıvan təşkilatının sədr əvəzi Yaşar Bağırsoy və onun qardaşı Zeynal Bağırsoy Muxtar Respublika Prokurorluğuna çağırıldıqlarını deyirlər. Yaşar Bağırsoy deyir ki, Nehrəm kəndinin sahə müvəkkili səhər saatlarında ona və qardaşına zəng vuraraq təcili prokurorluğa getməli olduqlarını bildirib:* «Noyabrın 22-si səhər sahə müvəkkili Elməddin bizə zəng elədi. Bildirdi ki, səni də, qardaşın Zeynalı da təcili Respublika Prokurorluğuna çağırıblar. Səbəbini soruşdum, heç nə demədi. Bildirdim ki, poçt vasitəsilə çağırış olmalıdır. Bu şəkildə prokurorluğa çağırılmamız qeyri-qanunidir. Getməkdən imtina elədim. Zeynala da dedim ki, getməsin. Çünki bunlara inam yoxdur. Bizi qeyri-qanuni çağırıb orada işgəncə verib, öldürə də bilərlər. Sonra qardaşım Zeynala zəng vurub onu hədələyiblər. Deyiblər, gəlməsəniz sizə pis olacaq».

*Yaşar Bağırsoy Respublika Prokurorluğuna çağırılmalarını özünə qarşı siyasi təzyiq hesab edir:* «Bu günlərdə mənim iştirakımla İctimai Palatanın Naxçıvan Muxtar Respublika Şöbəsi təsis edildi. Yerli hakimiyyət bundan qorxuya düşüb. Hesab edirəm ki, qardaşımın və mənim bu şəkildə qanunsuz olaraq Muxtar Respublika Prokurorluğuna çağırılmamız bizə qarşı təzyiqdir.»

Naxçıvan Muxtar Respublika Prokurorluğu ilə əlaqə saxladıq. Oradan bildirdilər ki, nə Yaşar Bağırsoy, nə də Zeynal Bağırsoy prokurorluğa çağırılıb. Nehrəm kənd sahə müvəkkili ilə də əlaqə saxladıq. Sahə müvəkkili isə Bağırsoy qardaşlarının dediklərinə münasibət bildirmək istəmədi. Yaşar Bağırsoy isə bildirir ki, rəsmi çağırış gəlməyincə, prokurorluğa getməyəcəklər.

***Yafəz Əkrəmoğlu***

# Pensiyalar artırılacaq



Səlim Müslümov

**Noyabrın 24-də Milli Məclisdə 2012-ci il üçün yaşayış minimumu, ehtiyac meyarının həddi və Dövlət Sosial Müdafiə Fondunun büdcəsi haqqında qanun layihələri müzakirə olunub. Yaşayış minimumunu ölkə üzrə 108 manat, əmək qabiliyyətli əhali üçün 116 manat, pensiyaçılar üçün 84 manat, uşaqlar üçün 87 manat məbləğində müəyyən etmək nəzərdə tutulur.**

SABİR RÜSTƏMXANLI: **"5 UŞAĞI OLAN PROFESSOR VAR. NECƏ DOLANDIRSIN?"**

*"Mediaforum" saytı yazır ki, deputat Sabir Rüstəmxanlı müzakirələrdə sərt danışıb:* "Orta Azərbaycan ailəsinin necə dolandığı məlumdur. 5 uşağı olan professor var. Necə dolandırsın? Büdcə çox gözəldir, amma yaşayış səviyyəsi gündən-günə ağırlaşır. Rayonlarda əli-ayağı yer tutan fikirləşir ki, ölkədən çıxıb gedim. Bir dəstə yağ-bal içində yaşayır, millət zillət içindədir".

*Deputat İqbal Ağazadə deyib ki, regionlarda iş yerlərinin açılması və büdcənin formalaşması məsələsi arasında ziddiyyət var:* "Bəs nəyə görə məcburi sosial sığorta ödəyənlərin sayı artmır? Dövlət büdcəsindən ayrılan transfertlərin ildən-ilə artması da Dövlət Sosial Müdafiə Fondunun iflic vəziyyətdə olduğunu göstərir. Dövlət Sosial Müdafiə Fondu insanların yaşayış minimumunu ödəyəcək səviyyədə deyil".

SƏLİM MÜSLÜMOV: **"MÜAVİNƏTLƏR ARTIRILACAQ"**

*Səlim Müslümov İqbal Ağazadənin çıxışına da münasibət bildirib. O deyib ki, tikinti, şadlıq evləri və digər sahələrdə çalışan insanların məcburi sosial sığortaya cəlb edilməsi sahəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Vergilər Nazirliyi iş aparır:* "Bu sahədə iş davam edir. Amma açıq şəkildə demək lazımdır ki, 2003-cü ildən indiyə qədər fondda qeydiyyata alınanların 500 min nəfərdən çoxu yeni iş yerlərində çalışanlardır. Onu da deyim ki, kənd təsərrüfatında çalışanlar sosial sığorta ödəmirlər və pensiya məsələsində gələcəkdə onlarla bağlı problem yarana bilər. Biz bunu insanlarımızın diqqətinə çatdırmağa çalışırıq".

Gələn il yanvarın 1-dən Azərbaycanda bütün pensiyaçıların müavinətləri artırılacaq. Bunu da Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümov bildirib.

**PARLAMENTƏ YENİ MAŞINLAR ALINACAQ**

Parlamentin iclasında "Milli Məclisin 2012-ci il üçün xərclər smetası" və Hesablama Palatasının xərclər smetasının layihəsi də müzakirə edilib. İclasda qeyd olunub ki, parlamentin 2012-ci il üçün xərcləri 19 milyon 915 min 565 manat vəsait nəzərdə tutulub. Xərclərin 69 faizini əməkhaqqı fondu təşkil edir. Gələn il Milli Məclis üçün yeni nəqliyyat vasitələrinin alınması üçün 400 min manat nəzərdə tutulur.

# Nazir vergi yükünün azaldılmasının əleyhinə çıxdı



Fazil Məmmədov

*Azərbaycanın Vergilər naziri Fazil Məmmədov Milli Məclisdə deyib ki, Azərbaycanda vergi yükünün aşağı salınması barədə müzakirələr yersizdir və ölkədə böyük vergi yükü yoxdur:* Büdcə layihəsinin müzakirəsi zamanı Mərkəzi Bankın sədri Elman Rüstəmov vergi yükünün azaldılmasını təklif edirdi. Vergilər naziri isə deyir ki, Azərbaycan azad iqtisadi zona deyil və iqtisadiyyatda belə addımlara daha ehtiyatla və diqqətlə yanaşır.

Nazirin sözlərinə görə, sosial vergi Azərbaycanda sosial ayırmalarla birlikdə 21,5%, sosial ayırmalarsız 17,5% təşkil edir. Avropa İttifaqı ölkələrində isə bu göstərici 39,5%-ə bərabərdir. F. Məmmədovun sözlərinə görə, 2 min manata yaxın gəlirin 14%-nin vergiyə cəlb olunması vacibdir: "Hansısa bankir 35% vergi verəcəksə, niyə bu, kimisə narahat edir? Kimsə çox qazanacaqsa 2 min manata qədər 14%-lə, qalanından isə 35%-lə vergisini verəcək. Bu, dünya praktikasında da var».

Həmçinin F.Məmmədov deyib ki, kənd təsərrüfatının tamamilə vergidən azad edilməsi müddəti 5 il uzadılıb və təkcə kənd təsərrüfatında bu il vergidən azad olunma nəticəsində 2,4 milyard manatadək əlavə dəyər yaradılması gözlənilir. «Hər kəsin yaxın qohumlarında sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar var. Təbii ki, heç kim vergini sərbəst şəkildə ürəklə ödəmir. Belə hallar dünyanın hər yerində mövcuddur".

Nazir bildirib ki, yanvar və ya mart ayından hüquqi şəxslərin «on-line» qeydiyyatına başlanacaq. İki gün əvvəl nəzarət-kassa aparatlarının «on-line» qeydiyyatına başlanıb.





**Dəyərli oxucular!**

AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadliqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın. **Məsələn:**

- **Kanalizasiyaya ayrılan pullar hara axıdılır?**
- **Ziyalılar Azərbaycanda korrupsiya haqqında**

# Рафик Таги: Иран и неизбежность глобализации



**Государство по имени Иран - которое развенчало Ислам во всем мире, строит образ жизни на религиозно-фантастических сюжетах, и для которого наука состоит чуть ли не только из толкований и комментариев Корана - уже стало для человечества невыносимым. Это государство со своей историей, являющейся свалкой войн, продолжает надменно угрожать цивилизованному миру.**

Иранская культура далека от гуманизма и ничего не знает о нем. *Даже Фирдоуси, который не понял сути тюркства, и которого тычут нам в глаза, не может быть идеалом для человечества. Современный Иран – легко разрушимый миф.*

Главу государства, который призывает стереть Израиль с лица земли; прививает ненависть к евреям - народу пророков, которые подтолкнули своими гигантскими открытиями человечество в будущее; не желает признать Холокост, признанный международным военным трибуналом в Нюрнберге и самими немцами, до сих пор выплачивающими евреям компенсации, конкретно Махмуда Ахмеднижада, который готовится лично встретить на территории Ирана имама Мехди Сахиб-аз Замана, никак нельзя назвать разумным человеком.

Лидеров религиозного государства, которые считают Праздник весны – Новруз не соответствующим Исламу; заявляют, что казненные, невиновность которых выяснилась уже после казни, попадут прямо в рай; признают за женщиной право на развод только если будет доказано отсутствие полового органа у мужчины; видят развитие только в насекомом размножении через многоженство и подавляют даже право своих народов писать и читать, тоже никак нельзя назвать разумными людьми.

*Человечество давно сказало «нет» теократии;* уже столетия назад поставлена точка подобным спорам. Теократическое государство в современном мире уродливо и страшно. Законы шариата составляют диссонанс с цивильным правом.

*Иран со своими амбициями находится в изоляции от культурного мира.* К сожалению, Иран, который в случае обладания ядерным оружием будет управлять им на основании сновидений или откровений, предстает перед лицом мира не своей культурой, а только зверствами. Иран не знает, что самые огромные зверства в наше время тоже покоряемы.

Человечество обладает силой, производящей мирскую справедливость. Угрозы из Ирана в адрес независимой Азербайджанской Республики выглядят смешно. Есть грубая пословица: не может совладать с ослом, бьет его седло. Как я уже говорил, что Иран поражает нас не культурой, пусть и устарелой, а насилием.

И без того архаичная иранская культура уже достигла степени варварства. Нравственность, воспитанная на понятиях рая и ада, производит глисты, подобно толстой кишке.

***

Когда вспоминаются такие тоталитарные государства, как Иран, еще раз убеждаешься в важности и неизбежности глобализации. Глобализация делает уже ненужными культуры, которые творят зло. Порождающая военную спесь, угрожающая и подавляющая людей культура в Иране должна считаться атавизмом для человеческой цивилизации. Глобализация означала бы ликвидацию тормозящих развитие национальных традиций во всем мире. В свое время я писал, что «Земной шар – однокомнатная квартира человечества». *Все люди мира - земляне.*

Глобализация исключает тоталитаризм. При глобализации религии выступают как ложь от имени Всевышнего; открытые общества, обуславливающие удобную и безопасную жизнь, распространяются во всем мире, люди легко находят взаимопонимание друг с другом. Выглядит важным только научное познание мира. Национально-религиозные недостатки отбрасываются в архив истории. Вредные исторические знания превращаются в утиль. Кстати, *история – источник застарелой вражды.*

... Давайте думать и выдвигать мнения в пользу глобализации.

*10 ноября 2011*



# Четвертый!

В центре внимания англоязычной блогосферы – Йемен и Египет. В том, что отставка йеменского президента совпала по времени с новым витком насилия в Каире, видится особый символизм. Всем очевидно, что уход Салеха – только начало долгого процесса перемен в ближневосточной стране, и даже на сайте американского консервативного журнала *National Review* не особенно сожалеют об утрате очередного союзника в регионе. Патрик Бреннан пишет:

*Али Абдалла Салех стал четвертым президентом, свергнутым Арабской весной.* Салех – давний союзник США, и при всех его недостатках, ему удавалось сохранять страну, не имеющую значительных запасов нефти и не отличающуюся национальным единством. Но все же его падение не будет воспринято как значимая потеря.

А это значит, что участники десятимесячных молодежных акций протеста на Площади Перемен окажутся вытесненными из политического процесса. Поэтому они изначально не принимают отставку Салеха всерьез. Фауд аль-Хотхефи пишет в Твиттере:

Инициатива Содружества не является нашей целью. Мы вышли на улицы не ради этой инициативы. Мы сами знаем, как обустроить Йемен. Работать параллельно не получится. Путь только один, и он наш. Мы с Площади Перемен, мы знаем, кто мы такие и что нам нужно, поэтому всем этим партиям лучше бы убраться. Йемен свободен.

***Ольга Серебряная***

**На сайте radioazadlyg.org:**

- Азербайджанские «мыльные оперы»
- Зафар Гулиев: Али Гасанов как зеркало власти
- Джавидан Тебризли: Не пойман – не вор?

# Rafiq Tağını kim öldürdü?



Rafiq Tağı

**Noyabrın 19-u axşam naməlum şəxslər tərəfindən bıçaqlanan yazıçı Rafiq Tağının noyabrın 23-də gözlənilməz ölümü mətbuatın və ictimai müzakirələrin əsas mövzusuna çevrilib. Yazıçı çoxlu bıçaq yarası alsa da, əməliyyatdan sağ çıxa bilmişdi. Lakin Klinik Tibbi Mərkəzdə müalicə alan yazıçı noyabrın 23-də günorta təqribən 15.15 radələrində vəfat etdi. Özünü pis hiss edən yazıçı reanimasiyaya aparılıb. Qardaşının sözlərinə görə, reanimasiya şöbəsinə çatanda Rafiq Tağı artıq vəfat etmişdi.**

**DEYİB-GÜLÜRDÜ...**

Yada salaq ki, Rafiq Tağı əməliyyatdan sonra ayılaraq danışmışdı və onun vəziyyəti isə stabil idi. Hətta ölümündən saat yarım qabaq yazıçı AzadlıqRadiosunun əməkdaşına müsahibə vermişdi *(həmin müsahibənin videogörüntülərinə radionun saytında baxmaq olar).*

Səhiyyə Nazirliyinin məlumatında isə deyilir: «Cərrahi əməliyyatdan sonra reanimasiya şöbəsində aparılan intensiv kompleks müalicə nəticəsində xəstənin vəziyyəti stabilləşib və o, palataya keçirilib. Lakin noyabrın 23-ü saat 14:50-də xəstənin vəziyyəti qəflətən pisləşib, kəskin tənəffüs çatışmazlığı və davamlı qusma baş verib. Aparılan reanimasiya tədbirlərinə baxmayaraq, xəstənin həyatını xilas etmək mümkün olmayıb».

Noyabrın 24-də Rafiq Tağı Bakının «Qurd Qapısı» ərazisindəki qəbiristanlıqda dəfn olunub. Ailə üzvləri ilə yanaşı, jurnalistlər, yazıçılar, şairlər də dəfn mərasimində iştirak ediblər. Rafiq Tağının ölümü anasından gizlədilib. Qardaşları deyir ki, yazıçının nə bıçaqlanması, nə də ölümü haqda analarına heç nə deməyiblər. Onların fikrincə, yaşlı ananın ürəyi belə xəbərə tab gətirə bilməz.

İndi hamını bir sual düşündürür: Yazıçını kim bıçaqladı və niyə bu bıçaq yaralarından sağ çıxa bilsə də, xəstəxanada qəflətən vəfat etdi? Onun heç kimlə şəxsi ədavəti olmayıb və həmişə yalnız yazılarına görə hədələnib.

**AİLƏSİ HƏKİMLƏRİ MƏHKƏMƏYƏ VERİR**

Rafiq Tağının ailə üzvləri başda Səhiyyə naziri olmaqla 1 saylı Bakı Klinik Xəstəxananın baş həkimini, cərrahları və müalicə həkimlərini məhkəməyə verirlər. Bunu noyabrın 26-da yazıçı-publisist Rafiq Tağının ölümünün 3 mərasimində qardaşı Alim Tağıyev jurnalistlərə deyib. Alim Tağıyev həmçinin deyib ki, Rafiq Tağının həyat yoldaşı və övladları hələ də təhlükədədirlər. Ona görə də ailə üzvləri Avropa ölkələrindən sığınacaq istəyirlər. Ailə üzvlərinə istintaqla bağlı heç bir məlumat verilmir. İstintaqçılar Rafiq Tağıya məxsus kompyuteri aparıblar.

**5 MÜŞAHİDƏ KAMERASI...**

Jurnalistlər isə Rafiq Tağının bıçaqlanmamışdan əvvəl keçdiyi yerlərə *(Rafiq Tağının yaşadığı evə yaxın dəmiryol ərazisinə)* baxış keçiriblər. Məlum olub ki, onun keçdiyi yerlərdə 5 müşahidə kamerası olub. Ancaq Rafiq Tağının qardaşı deyir ki, polis ailəyə həmin müşahidə kameralarının işləmədiyini bildirib.

**PREZİDENTİN NƏZARƏTİNDƏ**

Yazıçı-publisist Rafiq Tağının xəstəxanada ölümü ilə bağlı Cinayət Məcəlləsinin 120.1 (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi açılıb. Bu barədə Daxili İşlər Nazirliyi və Baş Prokurorluq məlumat yayıb. Noyabrın 26-da Baş prokuror və Daxili İşlər naziri istintaq-əməliyyat qrupunun hesabatını dinləyiblər. Qeyd olunub ki, cinayət işinin istintaqı prezidentin xüsusi nəzarətindədir.

# Azərbaycanlı yazıçının öldürülməsi dünya mətbuatında

**Frans Press agentliyi yazıçı Rafiq Tağının ölümü ilə bağlı məlumatına belə başlıq qoyub: "İranın azərbaycanlı tənqidçisi bıçaqlanandan sonra öldü". Frans Press Rafiq Tağının qardaşı İlqar Tağıyevin sözlərini sitat gətirir: "Mənim qardaşımın şəxsi düşmənləri yox idi. Onun məqalələrində İran rejimi və Azərbaycan hökuməti tənqid olunurdu".**

Agentlik xatırladır ki, Rafiq Tağı dini hisslərə toxunan yazısına görə 2007-ci ildə üçillik həbsə məhkum olundu, ancaq sonra prezident fərmanı ilə əfv olundu. Məlumatda deyilir ki, Azərbaycanın İranla problemli münasibətləri var. Azərbaycan İranı Azərbaycandakı radikal islamçılara dəstəkdə və Ermənistanla iqtisadi əlaqələrdə qınayır. Associated Press agentliyi də diqqəti Rafiq Tağının İran haqda məqalələrinə cəmləyir və yazır ki, İran rejiminin və islamın tənqidçisi 61



yaşlı Rafiq Tağı naməlum adam tərəfindən 6 dəfə bıçaqlandı və bundan dörd gün sonra xəstəxanada vəfat etdi. Associated Press-in Rafiq Tağının ölümü haqda məlumatını "Washington Post" qəzeti bütünüklə çap edib.

İranian.com saytında isə blogger Savalan yazır ki, "Ateist yazıçı Rafiq Tağı Azərbaycanda öldürüldü". Savalan Rafiq Tağını "İran rejimi və islamçılığın əleyhinə yazıların müəllifi" kimi təqdim edir və yazır ki, Rafiq Tağı "Məhəmməd peyğəmbəri təhqir etdiyinə görə, bir il həbsdə yatıb. İran Ayətullası Lənkərani yazılarına görə Rafiq Tağının ölümünə fitva verib".

Natasha Schmidt Britaniyanın söz azadlığı üzrə aparıcı təşkilatı İndex on Censorship-in saytındakı bloqunda yazır: "Mən Rafiq Tağı ilə 2010-cu ilin sentyabrında Bakıda görüşmüşdüm. Rafiq Tağı yarızarafat deyirdi ki, onun təəssüratına görə, hökumət onun həbsinə "onun həyatını qorumaq üçün" əmr verdi".

Schmidt yazır ki, "Rafiq Tağının sözlərində ola bilsin müəyyən həqiqət var idi. Azərbaycanda jurnalistlərə hücum edənləri heç vaxt məhkəməyə cəlb etmirlər və burda cəzasızlıq şokedicidir".

Britaniyanın "Guardian" qəzeti yazır ki, bəzi dostları xəstəxanada təhlükəsizliyin yoxluğundan şikayətlənirdilər, ancaq Rafiq Tağı özünü təhlükədə hiss etmədiyini deyirdi.

# Son 20 ilin ən çox diqqət mərkəzində olan yazıçısı


Rafiq Tağı

**Rafiq Tağı çağdaş Azərbaycan nəsrinin ən görkəmli nümayəndələrindən biri sayılır. Daha çox realist hekayələri ilə tanınan R.Tağı "ekstremal" adlandırdığı şeirlər də yazıb. Onun hekayələri Azərbaycan cəmiyyətinin keçid dövründə yaşadığı problemlər, avtoritarizm meyilləri, məmur özbaşınalığı, mənəvi deqradasiya və s. kimi mövzulardadır. R.Tağı davamlı olaraq mətbuatda da məqalələr çap etdirib. Bədii əsərlərindən daha çox onun publisistik yazıları cəmiyyətdə mübahisələrə səbəb olub.**

Bu baxımdan R.Tağı son 20 ildə Azərbaycanın ən çox diqqət mərkəzində olan yazarı sayıla bilər. Ötən əsrin 90-cı illərində R.Tağı Azərbaycan ədəbiyyatının klassiki Cəlil Məmmədquluzadə haqda tənqidi yazı yazmış, onu əsərlərində Azərbaycan xalqını aşağılamaqda ittiham etmişdi. Həmin yazı birmənalı qarşılanmamış, bir çox qələm yoldaşları R.Tağını həmin tənqidlərə görə qınamışdı. R.Tağı mətbuatda keçmiş prezident Əbülfəz Elçibəy haqqında da sərt yazı ilə çıxış etmiş, onu səriştəsizlikdə günahlandırmış və cəmiyyətin millətçi kəsiminin etirazı ilə üzləşmişdi. 2004-cü ildə Rafiq Tağı Azərbaycan Yazıçılar Birliyindən xaric edilib. Sovet dövrünün məşhur şairi Səməd Vurğun haqda "Qafqazın qartalı Şaumyan belə..." essesi buna səbəb olub.

### HƏBSLƏ ÜZLƏŞDİ

2006-cı ildə isə Rafiq Tağı dini ədavəti qızışdırmaq ittihamı ilə 3 illiyinə həbs edilib. Səbəb onun "Sənət qəzeti"ndə dərc olunan "Avropa və biz" adlı məqaləsidir. Məqalədə İslam və onun peyğəmbəri haqda tənqidi fikirlər yer alıb. 8 ay sonra prezident onu əfv edib.

### YAZMAĞINDAN QALMADI

Bu il sentyabrın 13-də AzadlıqRadiosunun "Oxu zalı" ədəbiyyat portalında R.Tağının "Mirzə Ələkbər haqqında gecikmiş sözlər" məqaləsi çap edilmiş, cəmiyyətdə birmənalı qarşılanmayan həmin yazıda Azərbaycanın görkəmli satirik şairini öz xalqını aşağılamaqda günahlandırmışdı. Bu yaxında isə R.Tağının AzadlıqRadiosunun "Oxu zalı" ədəbiyyat portalında və kulis.az saytında "İran və qloballaşma qaçılmazlığı" məqaləsi çap edilmişdi. Yazıda İran İslam Respublikasının söykəndiyi dəyərlər kəskin tənqid edilmişdi. Yazıçı bıçaqlanandan sonra AzadlıqRadiosuna verdiyi müsahibədə ona hücumun sözügedən yazı ilə bağlı ola biləcəyini demişdi.

### R.TAĞI İNANIRDI Kİ...

onun mübahisələrə yol açan yazıları son nəticədə demokratik cəmiyyətin formalaşması üçün vacib olan plüralizmə, söz azadlığına, ictimai müzakirə mühitinin yaranmasına xidmət edir. 61 yaşında qətlə yetirilən R.Tağı Masallı rayonunda anadan olub. Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirib. R.Tağı daha sonra təhsilini İ.M.Seçenov adına I Moskva Tibb İnstitutunun "daxili xəstəliklər" üzrə klinik ordinaturasında davam etdirib. Terapevt-kardioloq, kardioloq-reanimatoloq olan R.Tağı əvvəl Azərbaycanda, daha sonra isə Rusiyada həkim kimi çalışıb.

1990-cı illərdə Bakıya dönüb. Qətlə yetirilənədək Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında həkim işləyib. Dövlət qeydiyyatına alınmayan yazarlar qurumunun - Azad Yazarlar Ocağının üzvü idi. İndiyəcən "Yanaşı ulduzlar"(1987), "Düşmənimin xatirinə"(1991), "Pozitiv. Neqativ" (1996), "Şahzadə Dipendranın məhəbbəti"(2005), "Ucaboy liliput" (2005), "Gənc qraf Kenterberiyski" (2006) adlanan kitabları çap edilib.

# Beynəlxalq təşkilatlar yazıçının qətli barədə

**Nyu-Yorkda yerləşən Jurnalistləri Müdafiə Komitəsinin bəyanatı:**

- Biz Rafiq Tağının ölümündən təəssüflənirik, bizim ürəyimiz onun ailəsi və dostları ilədir. Azərbaycan hakimiyyəti Rafiq Tağının ölümünə səbəb olan hücumu hərtərəfli araşdırmalı və ədaləti təmin etməlidir.

**Sərhədsiz Reportyorlar Təşkilatı:**

- Rafiq Tağının ölümündən şoka düşmüşük. Təşkilat Rafiq Tağıya hücumun onun jurnalist fəaliyyəti ilə əlaqədar olub-olmamasını araşdırmağa çağırır.

**ATƏT-in media azadlığı üzrə nümayəndəsi Dunja Mijatovic:**

- Yazıçı-jurnalist Rafiq Tağının ölümündən dərin kədərləndiyimi bildirir, cinayətkarların məsuliyyətə cəlb ediləcəyinə ümidlə yanaşıram. Bu hücum, mətbuat, söz azadlığına hücumdur və bu cinayət demokratiya naminə hərtərəfli araşdırılmalıdır. Cinayətin motivi və cinayətkarların kimliyindən aslı olmayaraq bütün cavabdehlər məsuliyyətə cəlb olunmalıdır. Azərbaycan hakimiyyətinin tez və hərtərəfli istintaq aparacağına ümidlə yanaşır, eyni zamanda təəssüflə xatırladıram ki, 2005-ci ildə jurnalist Elmar Hüseynovun qətlinin üstü hələ də açılmamışdır.

## AzadliqRadiosu.az saytında həmçinin bu videolara baxın:

- **Rafiq Tağı vəfatından bir saat əvvəl**
- **Rafiq Tağının dəfni**

# Rafiq Tağının ölümünə siyasi çevrələrdən gələn reaksiyalar


İsa Qəmbər

**MÜSAVAT PARTİYASININ BAŞQANI İSA QƏMBƏR:**

- Bu hadisənin nəticələrinə gəldikdə tarix sübut edir ki, belə hadisələr cəmiyyətdə qısamüddətli şok yaratsa da, insanların mövqeyini dəyişmir. Qorxanlar onsuz da qorxurlar, qorxmayanlar isə əvvəllər necə düşünürdülərsə, necə yazırdılarsa, elə o cür də fəaliyyətlərini davam etdirirlər, həqiqətləri yazırlar. Heç bir qatil, heç bir qətlin sifarişçisi Azərbaycan cəmiyyətini, onun ziyalılarını, intellektuallarını susdurmağa nail ola bilməyəcək.


Əli Kərmli

**AXCP SƏDRİ ƏLİ KƏRİMLİ:**

- İstənilən halda Azərbaycan hakimiyyəti, hökuməti hər şeyi etməlidir ki, bu cinayət tezliklə açılsın. Əgər bu cinayət də tezliklə açılmayacaqsa, o zaman Azərbaycan hökumətinə qarşı yönələn ittihamlar daha da artacaq. Çünki indiyə qədər ictimai-siyasi zəmində baş vermiş olayların, qətllərin üstü açılmayıb. Bu sırada jurnalist Elmar Hüseynovun, general Rail Rzayevin qətlini xatırlatmaq olar.

**HAKİM YAP-ın İCRA KATİBİNİN MÜAVİNİ, MİLLƏT VƏKİLİ SİYAVUŞ NOVRUZOV:**

- Biri qonşusu ilə dalaşacaqsa, başqa biri ilə dava edəcəksə, ümumiyyətlə, kim hansı fəaliyyətlə məşğul olacaqsa, bunun məsuliyyəti niyə hakimiyyətin üzərində olmalıdır? Mən bunu başa düşə bilmirəm. Mən istənilən qəsdi pisləyirəm və Rafiq Tağıya qarşı qəsd də pislənməlidir. Ancaq hüquq-mühafizə orqanları məsələni araşdırır və nəticələr barədə cəmiyyətə məlumat veriləcək. Nəyə görə hakimiyyət məsuliyyət daşımalıdır? Təbii ki, hər bir vətəndaşın təhlükəsizliyini qorumaq Azərbaycan dövlətinin əsas vəzifələrindən biridir. Ancaq cəmiyyət mövcuddursa, orada bu və ya digər formada cinayətlər də olur. İran məsələsinə gəlincə, bu ola bilər.


Siyavuş Novruzov

Akademik Ziya Bünyadovun qətlə yetirilməsində İran motivi ortaya çıxdı. Ola bilər. Amma mənim əlimdə hər hansı konkret faktım yoxdur deyim ki, Rafiq Tağını İran öldürtdürüb.

**ANA VƏTƏN PARTİYASININ SƏDRİ FƏZAİL AĞAMALI:**

- Mən dərin təəssüfümü bildirirəm, Allah rəhmət etsin. Tamam fərqli düşüncə sahibi, fərqli bir yazar idi. Söhbət ondan getmir ki, mən onun yazdıqları ilə həmfikirəm. Hər halda cəmiyyətdə müxtəlif fikirli insanlar ola bilər. Allah rəhmət etsin, təəssüf edirəm ki, onu vəhşicəsinə qətlə yetirdilər. Bu kimdisə, düşünürəm ki, hər halda xüsusi


Fəzail Ağamalı

sifarişlə, məqsədlə həyata keçirtdi. Mən əminəm ki, Azərbaycanın hüquq-mühafizə orqanları bu məsələyə, yəni Rafiq Tağının həyatına qəsd edənin tapıntısı üçün çox təcili tədbirləri həyata keçirəcəkdir. Çünki bu, çox önəmli və vacib məsələdir. Bundan sonra bu və buna bənzər qətllər davam edə bilər.

*Bunlar siyasətçilərin «MediaForum» saytına verdikləri müsahibələr idi.*


Ərəstun Oruclu

EKSPERT RƏYLƏRİ:

**«İNSAN, SADƏCƏ, QƏTLƏ YETİRİLDİ»**

Şərq-Qərb Araşdırmalar Mərkəzinin direktoru, 10 il reanimatoloq işləmiş Ərəstun Oruclu Rafiq Tağının bıçaqlandıqdan 4 gün sonra xəstəxanada qəfil ölümü ilə bağlı həkimlərin açıqladığı ilkin rəyləri əsassız hesab edir: «Huşu üstündə olan adamın, yəni normal durumda olan adamın – dərin içkili vəziyyətdə olmayan, əməliyyatdan bir neçə saat əvvəl çıxmayan adamın – göstərilən səbəbdən, yəni boğulub ölməsi tibbi praktikada rast gəlinməyən hadisədir. Məncə, insan, sadəcə, qətlə yetirildi».

**PALATAYA KÖÇÜRMƏSƏYDİLƏR...**

Həkim Adil Qeybulla deyir ki, sualların cavabını ekspertizanın yekun rəyindən sonra detallaşdırmaq mümkündür. Onun fikrincə, xəstənin vəziyyətini nəzərə alıb reanimasiyadan palataya köçürməsəydilər, bəlkə də ölümlə nəticələnməyəcəkdi: "İntensiv müalicədə olsa, daha yaxşı olardı. Amma biz ilkin vurulan zədələnmənin də ciddi olduğunu unutmamalıyıq".

**İNANCLILARLA İNANCSIZLARIN QARŞIDURMASI**

Rafiq Tağının həmkarı, yazıçı Əli Əkbər deyir ki, «Azad Yazarlar Ocağı bu ölümlə ilk şəhidini verib»:

«Azərbaycanda bir yazıçının ölümü ilk dəfədir baş verir. Bu, artıq bir qırılma nöqtəsidir. Məni ən çox narahat edən şey qarşıdurmadır. İlk növbədə dar anlamda demokratik düşərgə içərisindəki inanclılarla inancsızların qarşıdurması. Belə bir parçalanma yaşana bilər. Artıq biz «Facebook»da bunun ilk işarələrini görürük və bu məni narahat edir».

# Son 8 ildə Azərbaycanda nə qədər iş yeri yaradılıb?

## Ekspertlər şübhələrini əsaslandırır....

**Azərbaycan hakimiyyəti rəsmi elan edir ki, son 8 ildə Azərbaycanda 950 min iş yeri yaradılıb. Ancaq müstəqil iqtisadçılar bu rəqəmin dəqiqliyinə şübhə edirlər. Elə cəmiyyətin özündə də bu rəqəmlərə inamsızlıqla yanaşan çoxdur. AzadlıqRadiosunun iqtisadiyyat saytı AzadlıqEko-nun sorğusunda oxucularımıza bir sual verilir: "Sizcə, 8 ildə yaradılan iş yerlərinin sayı 950 min ola bilərmi?"**

Sorğuda təklif olunan iki cavab variantına səs verənlər belə bölünür: ola bilər - 3,8%; heç cür ola bilməz - 96,2%. AzadlıqEko elə bu mövzunu müzakirəyə çıxarıb. İqtisadçılar, sosioloqlar, eləcə də bütün oxucularımız müzakirəyə dəvət edilir.

İqtisadçı Natiq Cəfərli:



Natiq Cəfərli

Natiq Cəfərli:

- Azərbaycan prezidenti son illərdə 1 milyona yaxın yeni iş yerlərinin aşılması haqqında dəfələrlə ictimaiyyətə məlumat verib, hökumət üzvləri də dəfələrlə bu rəqəmi təkrarlayıblar. Amma bu qədər iş yerləri doğrudan da açılmış olsa idi, bəzi rəsmi rəqəmlərdə özünü göstərməli idi. Məsələn, 2011-ci ilin büdcəsinə baxdıqda və ya 2012-ci ilin büdcə proqnozlarını araşdırdıqda məlum olur ki, nə fiziki şəxslərin gəlir vergisində, nə də Sosial Müdafiə Fondunun topladığı vəsaitlərdə ciddi artım olmayıb və bu təzad açıqlanan rəqəmlərin dəqiqliyini şübhə altına qoyur. Nəzərə alsaq ki, rəsmi məlumatlara görə ölkədə 4 milyondan artıq potensial işçi qüvvəsi var, deməli, şəxsi uçot kartı olanların sayında da bir mütənasiblik olmalıdır.

Amma son rəsmi rəqəmlərə görə, Sosial Müdafiə Fondunda qeydiyyatda olan insanların sayı 1,652 min nəfərdir. Bu o anlama gəlir ki, ya işsizlərin sayı rəsmi rəqəmlərdən dəfələrlə çoxdur, ya da qeydiyyatsız, qanunsuz, rəsmiləşdirilmədən çalışan yüz minlərlə insan var. Hər iki halda bunun günahı hökumətdədir. Beləliklə, elə açıqlanan rəsmi rəqəmlər, məlumatlar, prezidentin səsləndirdiyi "son illərdə 1 milyon iş yeri açılıb" sözlərinə şübhə ilə yanaşmağa kifayət edir.

Turan Informasiya Agentliyinin eksperti Hafiz Babalı:



Hafiz Babalı

- İş yerlərinin yaradılması barədə ən real mənzərəni DSMF-in sosial sığorta olunanların uçotu barədə məlumatları yarada bilərdi. Lakin Azərbaycanda bu informasiya qüsurlu olacaq. Digər tərəfdən, yüz minlərlə iş yerinin fiziki şəxslər tərəfindən açıldığı iidia olunur. Lakin bu iş yerlərinin xarakteri açıqlanmır. Bu isə məlumatın həqiqiliyini şübhə altına almağa əsas verir. Təxmini hesablamalara görə, son 8 il ərzində ölkədə 300 000-dək yeni iş yeri yaradılıb. Bunun bir qismi dövlət sektorunun payına düşür. İş yerlərinin bir qismi müvəqqəti xarakterlidir, yəni infrastruktur obyektlərinin inşası ilə bağlıdır.

Hakimiyyət yeni yaradılan müəssisələr barədə çox danışa bilər. Nümunə olaraq Sumqayıt Texnologiyalar Parkı, Akkord, Gilan, Azərsun və s.-ni göstərə bilər. Amma bu dövrdə Gəncə və Sumqayıt alüminium zavodları, Sumqayıt boruyayma zavodunun minlərlə, Quba konserv zavodunun, özəlləşdirilmiş "Xəzərdənizsosialtikinti", "Xəzərdənizneftqazmatikinti" trestinin yüzlərcə işçisi işsiz qalıb. Molla mindiyini saymadığı kimi, hökumət də bağlanan iş yerlərini saymır.

Iqtisadçı-ekspert Qadir Ibrahimli:




Qadir Ibrahimli

- Son 8 ildə 950 min iş yeri açılsaydı fiziki şəxslərdən gəlir vergisinin həcmi əhəmiyyətli dərəcədə artmalıydı. Gələn ilin büdcəsində 696 milyon manat gəlir vergisinin yığımı proqnozlaşdırılır. Bu məbləğin 209 milyon manatı Hasilatın Pay Bölgüsü hesabına, 195 milyon manatı büdcə təşkilatlarının hesabına təmin ediləcək. 42 milyon manat isə ARDNŞ-in hesabına ödəniləcək. Qalan 250 milyon manat özəl sektorun üzərinə düşür. Məsələni bir az da sadələşdirək. Əgər ARDNŞ-də işləyən 70 min nəfər il ərzində 42 milyon manat gəlir vergisi ödəyirsə, deməli, bir neftçi orta hesabla ayda 50, ildə 600 manat gəlir vergisi ödəyir. Bu göstəricini əsas götürsək, özəl sektorda cəmi 420 min nəfər gəlir vergisinin ödəyicisi var.

Hökumət arqument gətirə bilər ki, neft sektorunda əməkhaqqı yüksəkdir, onu başqa sektorlarla eyniləşdirmək olmaz. Arqumenti qismən qəbul edirik. Neft sektorunda əməkhaqqı çox yüksək olmasa da, hər halda başqa sektorlarla müqayisədə üstündür. Ona görə hesab edək ki, özəl sektorda bundan 2 dəfə çox gəlir vergisinin ödəyicisi var, yəni 840 min nəfər. Yenə hökuməti sevindirən rəqəm alınmır. Axı 950 min iş yeri açılmışdı. Bəs hanı qalan 110 min nəfər? Hələ 2003-cü ilə qədər özəl sektorda bir neçə yüz min nəfər çalışırdı. Bəs onlar hara qeyb oldu?

**AzadliqRadiosu.az saytında bu müzakirəyə siz də qatılın!**

# İran səfirliyi Rafiq Tağıya sui-qəsdlə bağlı açıqlama yayıb

İranın Azərbaycan Respublikasındakı səfirliyinin açıqlamasında deyilir: "Rafiq Tağıya qarşı törədilmiş sui-qəsd olayının İran İslam Respublikasına aid edilməsi ilə bağlı bəzi şəxslər və Azərbaycan Respublikasının bəzi informasiya vasitələri tərəfindən irəli sürülən əsassız və həqiqətdən uzaq iddiaları təkzib etməklə yanaşı, mənfi atmosfer yaratmaq məqsədi daşıyan bu əməlləri İran İslam Respublikası və Azərbaycan Respublikası arasındakı strateji münasibətlərə xələl vurmaq istiqamətində sionizm-Amerika təxribatları kimi qiymətləndirir və bu kimi cəhdləri puç və məğlub addım hesab edirik".

Qeyd edək ki, R.Tağının özü də xəstəxanada AzadlıqRadiosuna verdiyi müsahibədə sui-qəsddə İranın Azərbaycandakı casus şəbəkəsinin əli ola biləcəyini istisna etməmişdi.

# Bakının qarlı problemi



**2010-cu ilin oktyabrında Bakıya gətirilən 265 yeni kommunal xidmət texnikası prezidentin iştirakı ilə «Azadlıq» meydanında nümayiş olunub. Həmin vaxt bu texnika ilə tanış olan prezident paytaxtda və bölgələrdə kommunal xidmətin səviyyəsinin daha da təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar verib. Amma qarlı günlərdə həmin texnikanı paytaxt küçələrində iş başında az adam görüb:**

*– Hər tərəf su, gölməçə, yollar tıxac. Heç bir texnika da gözə dəymir.*

–Mən gəldiyim yolları təmizləyən yox idi. Amma şəhərin mərkəzi təmizdir. Bir az şəhərin mərkəzindən ətrafına da diqqət yetirilsə, yaxşı olar.

*– Mən o texnikaların heç rəngini də görməmişəm. Ötən il gəlmişdi, ancaq biz görməmişik.*

– Qarı təmizləyən yoxdur.

*– Ötən ilin oktyabrında yeni kommunal texnikaları nümayiş etdirdilər, həmin texnikaları qar yağanda və ya sonra gördünüzmü?*

– Yox...

**«İŞIQLAR DÜNƏNDƏN SÖNÜB, TELEFON XƏTLƏRİ QIRILIB...»**

*Bölgələrdən gələn şikayətlərdə də qarın yaratdığı fəsadlar barədə eşidirik. Astaradan Elçin Məmmədov:* «Mərkəzi yollar açıqdır, qalan yollar qarla örtülüdür. İşıqlar dünəndən sönüb. Telefon xətləri qırılıb. Məktəblər bağlanıb. İcra hakimiyyətinin qabağı qarla doludur. Deməк, analoqu olmayan inkişaf bu səviyyədə imiş».

**QIŞA HAZIRLIĞA HƏR İL ƏTƏK-ƏTƏK PUL**

*Rəsmi «Azərbaycan» qəzeti isə qarlı havada Bakıda yaranan vəziyyəti «Məsuliyyətsizlik iflici» hesab edir. Qəzetin baş redaktoru Bəxtiyar Sadıqov yazır:* «Hər il Bakı Şəhər İcra Hakimiyyəti, ona tabe strukturlar, yolların təmiri və vəziyyətinə baxan müvafiq strukturlar qışa yaxşı hazırlaşdıqlarını və heç bir problem olmayacağını bəyan edirlər. Amma elə ki, ilk qar yağır, soyuqlar düşür, paxırları açılır. Hər il sadalanan qurumların hamısına dövlət büdcəsindən ətək-ətək vəsait ayrılır. Hər il qışa hazırlıqla bağlı «görülən» işlərə ətək-ətək pul xərclənir. Dövlət pul tökür, amma vətəndaşı narazı qalır! Büdcədən pul qoparanlar sevinir, sakinlər isə deyinə-deyinə qazsız, işıqsız, susuz qalırlar».





Sevda İsmayıllı hər həftənin çərşənbə günü, günorta **saat 12-də** efirə bir sualla başlayır: **"Bir "Can Bakı" deyərsizmi?"**... Bakının ictimai və mədəni yaşamı, düşüncə və əyləncə həyatı haqda, maraqlı şəxslərin iştirakı ilə keçirilən bu proqramın təkrarları da həftə boyu AzadlıqRadiosunun efirində səslənir. **"Can Bakı"nı AzadliqRadiosu.az** saytında da dinləyə və oxuya bilərsiz.


## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Qardaşı Rafiq Tağıya ölkədən getməyi məsləhət görürmüş**



Mehman Əliyev: **"Bu qətllə cəmiyyətdə özünü senzuranı gücləndirmək istəyirlər"**



Əli Həsənov: **"Rafiq Tağının hökumətlə problemi yox idi"**



**Jurnalistlərlə bağlı «açılmayan cinayətlər»in uzun siyahısı**



**Qələm yoldaşları Rafiq Tağı barədə...**

# Tikintidə fəhləlik edən xanəndə efirdə...



Mir Tağı Qəniyev

**«AzadlıqRadiosunun «Kontekst» proqramından sonra mənə çoxlu zənglər gəldi. Hətta Anar adlı bir prodüser mənimlə maraqlandı və tezliklə yanına çağıracağını bildirdi». Bu sözləri AzadlıqRadiosunun «Can Bakı» proqramının «İstedad nə vaxt üzə çıxır?» mövzusunda açdığı müzakirəyə qatılan fəhlə-xanəndə Mir Tağı Qəniyev söylədi.**

**İNTERNETDƏN BAŞIM ÇIXMIR**

*İnternetdən başı çıxmadığını deyən müsahibimiz çoxlarının internet vasitəsilə onu tanıdığını da etiraf etdi:* «Hamınız sağ olun. Deyəsən, nə isə olacaq».

*Mir Tağı bəy nəsillikcə səslərinin olduğunu dedi:* «Uşaqlıqdan oxuyurdum. Dindar ailədə böyümüşəm. Bizdə səsi olanlar moizə deyə bilərdi. Toya getməyə icazə yox idi. Orta məktəbi bitirdim, gəldim Bakıya. 1985-ci ildə BDU-nun hüquq fakültəsinə imtahan verdim. İki 4, bir 5 aldım. Xarici dil keçmədiyimdən mənə mexaniki 3 yazdılar. Müsabiqədən keçmədim».

**USTAD XANƏNDƏLƏRDƏN XÜSUSİ DƏRS ALMIŞAM**

*Ukraynada əsgərlik çəkib Yardımlıya dönən Mir Tağı musiqi sevgisindən qurtula bilmir:* «Uşaqlıqdan ustad xanəndələrə qulaq asırdım. Böyük qardaşlarım da oxuyan idilər. Onları da özümə ustad sayıram. Musiqi savadım yoxdur. Ancaq rəhmətlik İslam Rzayevdən, Sabir Mirzəyevdən xüsusi dərs almışam. Dəsgahlardan başım çıxır. Bir xeyli rayonda toylara getdim. Təzədən Ukraynaya qayıtdım - təhsil dalınca. İnstituta girdim, iki ildən sonra atıb gəldim Bakıya... 2 nömrəli Tibb Məktəbinə girdim. Müalicə işi fakültəsini bitirdim. Rayonda feldşer işlədim. 1993-cü ildə cəbhədə könüllü feldşerlik də etmişəm, vuruşmuşam da».

**FƏHLƏLİYƏ KEÇİD NECƏ BAŞ VERDİ?**

*Mir Tağı bəy daha sonra yenə toylara getdiyini, hətta Bakıda özünü-səsini sınadığını bildirdi:* «Nə qədər elədim şəhərdə tanınmadım. Gördüm inkişaf yoxdur. Məcbur olub fəhləliyə keçdim...»

**MİR TAĞININ SƏSİ GÖZƏLDİR**

*Verilişin digər qonağı bəstəkar Firudin Allahverdi Mir Tağının səsini saytımızdan dinlədiyini və çox bəyəndiyini söylədi:* «Oxuma məktəbindən cənub bölgəsindən olduğu hiss olunur. Sabir Mirzəyevin üslubu var səsində. Boğazlardan əvvəllər xanəndəlik etdiyi də, professionallığı da bilinir».

**TELEVİZİYA İNTERNETƏ UDUZUR?!**

Bu gün istənilən adamın uğurunun


Firudin Allahverdi

*«Facebook»dan və «YouTube»dan keçdiyini deyən Firudin Allahverdi Mir Tağıyla bağlı əhvalatın da buna sübut olduğunu vurğuladı:* «Bu gün televiziyanın özü də internetə uduzur. Odur ki, Mir Tağı bəyə internetdən yapışmaq lazım idi. Amma hələ də gec deyil».

**BİR TARÇALAN, BİR KAMANÇAÇALAN VƏ SİZ...**

*Firudin Allahverdi Mir Tağıya konkret yol da göstərdi:* «Bir tarçalan və bir kamançaçalan tapmaq böyük problem deyil. Bizdə violonçelçalan tapmaq müşküldür. Onlarla, məsələn, bir «Zabul Segah» oxuyub «YouTube»a qoymaq və daha da populyarlaşmaq olar. Ondan sonrakı mərhələ sponsor axtarışıdır».

*- Verilişə dünyanın hər yerindən gələn dinləyici mesajları necə cavablandı?*

*- Fəhləlik edən xanəndə ayda nə qədər qazanır? Kirayəyə nə qədər ödəyir?*

**Ən yaxşısı, AzadliqRadiosu.az saytında verilişi dinləməkdir.**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**Mirzə Fətəli Axundov «Sübhün səfiri»ndə**


**Əli Əkbərdən yeni roman gəldi: "Sarı gəlin"**


**Herta Müller - Markesi tənqid etdi**


**Rəssamlıqda «dayı» söhbəti**


**Məşhur yazıçının ilk romanı 70 il sonra çap edildi**

# Как стыд побеждает страх



**Ниже в сокращении опубликован только одна статья из тюремных воспоминаний известного журналиста, редактора газеты «Реальный Азербайджан» Эйнуллы Фатуллаева. Здесь, наряду с интереснейшими деталями тюремной жизни, быта и нравов, приводятся и рассуждения автора о политической ситуации в Азербайджане, о геополитике и т.д. Полностью тюремный цикл Эйнуллы вы можете прочитать на русском сайте РадиоАзадлыг (www.radioazadlyg.org) азербайджанской редакции.**

Путинизм заставил и нашего президента по-другому взглянуть на многое. Ильхам Алиев обнаружил почти у себя под боком мощную «пятую колонну» российских агентов влияния во главе с главой президентской администрации Р.Мехтиевым. Пользуясь неограниченным доверием Семьи к собственной персоне и во многом благодаря своей личной преданности, он посадил на многих ключевых постах свои доверенные кадры, установив абсолютный и безраздельный контроль над гигантским командно-административным аппаратом. Преимущество «серого кардинала» над другими соратниками покойного Гейдара Алиева из первого круга лиц с доступом к Телу в том, что он ни разу не проявил амбиций, не допустил явных просчетов. «Серый кардинал» завоевал репутацию чиновника вне подозрений. От природы, он из той категории аппаратчиков, которые довольствуются отведенной им ролью. Ибо хорошо знают – на большее не способны.

Р.Мехтиев самокритичен как никто другой, его главное достоинство в том, что он знает свои сильные и слабые стороны. Он не обладает ораторскими способностями, харизмой и яркими личностными качествами. Но все это не помешало чиновнику, поднявшемуся на гребне волны комсомола мореходного училища, сделать сногсшибательную карьеру партчиновника, дослужившись до секретаря ЦК по идеологии. Трудно в нашей стране найти большего антизападника.

В период второго правления покойного Г.Алиева Р.Мехтиев больше выполнял роль статиста – делопроизводителя Хозяина… Реальной властью, даже административной, не обладал, ибо в период правления такой личности-эпохи как Гейдар Алиев, сложно допустить мысль о претензии на какую-либо самостоятельную роль. Но своих взгляды – неприязнь к западным ценностям и подобострастие к Москве - проявлял при каждом удобном случае. Он не мог понять, для чего Алиевы заигрывают с Западом и оппозицией, заботятся о своей международной репутации, стремятся к членству в Совете Европы и других трансатлантических структурах, утруждают себя имитационной демократией. Для чего все это? Ведь есть более легкий, удобный и прагматичный стиль управления, как, например, в Беларуси или Казахстане.

По свидетельству бывшего помощника Гейдара Алиева Эльдара Намазова, который тесно сотрудничал с моими изданиями, Г.Алиев как-то на одном из заседаний Совета безопасности сделал резкое замечание своему делопроизводителю: «Мехтиев, да пойми же ты в конце концов, сейчас не 70-е годы, Советский Союз остался в прошлом. Не то время».

Но Мехтиев с нетерпением дожидался своего времени. Он чувствовал, что реванш чекистской контрэлиты не за уральскими горами. Р.Мехтиев в союзе с другим товарищем из компартии Фатимой Абдуллазаде, ставшая во времена Человекобога музой науки, культуры и искусства, непрестанно убеждали Патриарха отказаться от обязательств перед Советом Европы. А по свидетельству другого приближенного к Верховной касте, ныне покойного Анара Мамедханова, бывший партком Академии наук Ф.Абдуллазаде, призванная выметать из азербайджанских умов «демократическую дурь», постоянно недоумевала: «А что, разве людям в Беларуси живется плохо?».

Словом, «пятая колонна» Кремля никогда не теряла своей прочной основы в госаппарате. Прислужники ЧеКа всегда были начеку. Именно эта «кремлевская колонна» сыграла архиважную роль в процессе прихода к власти действующего президента.

Не стоит забывать, что к смертному одру Патриарха были призваны лишь двое - наследник и Мехтиев. А в тревожные дни 2003 года генералы спецслужб России гостили именно в апартаментах «серого кардинала» и командовали разгоном манифестации.

А азербайджанская оппозиция традиционно ориентировалась на Запад и отвергала путь сотрудничества с «северным медведем» и «южной лисицей».

Геополитический выбор противников Алиевых легко объясним – все оппозиционные лидеры вышли из шинели Народного Фронта, который проповедовал ценности национальной независимости. Не было общих точек соприкосновения с Кремлем, который преследовал единственную цель – вернуть любой ценой Азербайджан в лоно своего влияния.

***Эйнулла Фатуллаев***



# Azərbaycan güləşində və boksunda əcnəbilər



Uzun illər Azərbaycandakı legioner idmançılardan danışanda adətən futbolçular müzakirə mövzusu olurdu. İdman şərhçiləri deyir ki, son vaxtlar elə idman növləri legionerlərin hesabına milliləşdirilir ki, futbol kölgədə qalıb.

**GÜLƏŞDƏ, BOKSDA LEGİONERLƏR**

İdman şərhçisi Sərxan Musayev: «O idman növlərində ki, potensial yoxdur, haradasa həmin sahələri başa düşmək olar. Ancaq Azərbaycanda, məsələn, güləşdə, boksda, xüsusilə sərbəst güləşdə bir-iki çəkidə yerli idmançılardır, çoxu Rusiyadan gələn idmançılardır. Bu, doğru addım deyil. Əgər potensial olmasaydı, başa düşmək olardı. Axı bu, bizim milli idman növümüzdür».

**YERLİ İDMANÇILARDAN 50-60 FAİZ ÇOX MAAŞ**

Boks Federasiyasının vitse-prezidenti Ağacan Əbiyev Azərbaycan komandasında olan legionerlər üçün ödənən məbləğ haqqında danışmadı. Bir onu dedi ki, onların maaşı yerli idmançıların maaşından 50-60 faiz çoxdur: «Onlar aylıq maaş alır. Onların maaşı yerli idmançıların maaşından 50-60 faiz çox olur».

Bu yaxınlarda Bolqarıstanın Ağır Atletika Federasiyasının rəhbəri Nedelcho Kolev bildirib ki, Azərbaycan Bolqarıstandan iki idmançı – 18 yaşlı Kostovu və 17 yaşlı Xristovu alıb. O deyib ki, Azərbaycan bu idmançılara görə 400 min avro ödəyib.

**400 MİN AVRO YOX, 200 MİN AVRO**

Azərbaycan Ağır Atletika Federasiyasının icraçı direktoru İsgəndər Əsgərov deyir ki, ödənmiş məbləğ 400 min avro yox, 200 min olub. Bundan başqa, federasiya daha 3 legioner idmançı alıb. Ukraynadan Yulya Dovga, Bolqarıstandan Boyanka Kostova və Silvia Angeleva alınıb. Qadın idmançılar üçün ödənən məbləğ isə kişilər üçün ödəndiyindən xeyli azdır: 15 mindən artıq deyil. 10-15 min».

İsgəndər Əsgərov deyir ki, gələcəkdə daha bir qadın ağır atlet alınması planlaşdırılır.

**ÇIXIŞ YOLU – LEGİONER İDMANÇILARDIR**

İdman şərhçisi Sərxan Musayev sual edir: «Sabah legioner idmançıların zədələnib sıradan çıxmayacağına kim zəmanət verə bilər? Belə çıxır ki, xərclənən yüz minlər boşa sərf olunur. Bu, yerli idmançılara xərclənsəydi, bir neçə ildən sonra onların xeyrini görmək olardı».

**5-i DƏ LEGİONER**

Azərbaycanda yeni sayılan avarçəkmə idman növü üzrə yığmanın da əsas tərkibi legionerlərdən ibarətdir. London olimpiadasına lisenziya qazanan 5 idmançıdan 5-i də legionerdir.

***Kəbiran Dilavərli***

# AzadlıqRadiosunda verilişlər:

*8:00 Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime*
9:00 Iz / Şəffaflıq / İşdən sonra
*10:05 Qərb musiqisi*
11:00 Xəbərlər
*11:05 Qərb musiqisi*
12:00 Xəbərlər
*12:05 Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə*
13:00 Xəbərlər
*13:05 Qərb musiqisi*
14:00 Xəbərlər
*14:05 Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq*
15:00 Xəbərlər
*15:05 Qərb musiqisi / Qaynar Xətt / Can Bakı*
*15:30 Amerikanın Səsi / İz*
16:00 Xəbərlər
*16:05 Qərb musiqisi / İşdən sonra*
17:00 Xəbərlər
*17:05 İşdən sonra*
18:00 Xəbərlər
*18:05 İşdən sonra / Pen Klub*
19:00 Qərb musiqisi
*20:00 Xəbərlər*
20:05 Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz
*20:30 Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24*
21:00 Qərb musiqisi
*22:00 Xəbərlər*
22:05 Kontekst / 14-24 / Şəffaflıq
*23:00 Xəbərlər*
23:05 Overtime / İşdən sonra / AzadlıqFM / Overtime
*00:00 - 8:00 Amerikanın Səsi / Qərb musiqisi*

# Simsiz teleqraf

## Bakıda məktəb yolu



***Yasamal rayonundakı 308 saylı məktəbin yolları acınacaqlı vəziyyətdədir. Havalar yağışlı olanda məktəbə gəlmək mümkün olmur. Hər yeri palçıq, zığ olan yolda tikinti şirkətinə aid beton maşınları təhlükə yaradır. Dəfələrlə tikinti aparan məsul şəxslərə şikayət etsək də, məsələ öz həllini tapmır. Yüklədi(video): Yaşar Cümşüdov***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:** efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

HotBird 13°E

**Kanalın adı**
**Radio bölümündə**
**Radio Free Europe/Radio Liberty**
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

## 24 saat

TURKSAT 42° E

**Kanalın adı**
**Radio bölümündə**
**Azadliq VOA Azeri**
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## necə dinləməli...

## Mobil telefonda canlı:

İndi 3G, GPRS və ya Wi Fi-la
günün 24 saatı
radiomuzu canlı dinləmək olur...
Ətraflı: **AzadliqRadiosu.az**-da

## AzadliqRadiosu.az-da video

Tikintidə fəhlə işləyən nadir səs sahibi...




**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**

Bizimlə əlaqə:

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**“Fərqli düşüncə” jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, “Qanun” mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz